


# Qətiyyətli mövqe və diplomatik nailiyyət

## Minsk prosesinin və əlaqədar strukturların bağlanması barədə ATƏT Nazirlər Şurasının qərarı ilə Azərbaycanın fundamental şərtlərindən biri yerinə yetirildi

**Ötən ay Vaşinqtonda Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ATƏT-in Minsk prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət imzalayıblar. Sentyabrın 1-də isə ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunub.**

Xatırladaq ki, Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin Vaşinqton görüşünün nəticələrinə dair imzalanmış Birgə Bəyannamədə də Minsk qrupunun bağlanmasına dair məsələ öz əksini tapmışdır. Tərəflər ATƏT-in bütün iştirakçı dövlətlərini bu qərarı qəbul etməyə çağırmışdılar.

### Ədaləti təmin edə bilməyən mexanizm

Beynəlxalq hüquq Azərbaycanın tərəfində olsa da, bütün dünya Qarabağı Azərbaycanın ərazisi kimi tanısa da, işğal dövründə ATƏT-in Minsk qrupu problemin həllinə nail olmaq, daha dəqiq desək, Azərbaycan torpaqlarının işğaldan azad edilməsini istəmədi. 1992-ci ildə yaradılan ATƏT-in bu mexanizmi öz fəaliyyətində beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanırdı. Beynəlxalq hüququn bütün norma və prinsipləri isə Azərbaycanın haqlı mövqeyini ifadə edirdi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 4 qətnamə də qəbul edilmişdi. Göründüyü kimi Minsk qrupunun ona həvalə olunmuş vəzifəni ədalətli şəkildə yerinə yetirə bilməsi üçün kifayət qədər böyük əsaslar və güclü beynəlxalq hüquqi baza var idi.

Lakin 30 ilə yaxın bir müddət ərzində Minsk qrupu problemin ədalətli həllinə nail olmaq üçün bir addım belə atmadı. Azərbaycan torpaqlarının faktiki olaraq işğal edilməsi, yüz minlərlə azərbaycanlının doğma torpağından məcburi köçkün salınması, onların yaşamaq və mülkiyyət hüquqlarının Ermənistan tərəfindən kobud şəkildə pozulması həmsədrləri qətiyyən narahat etmədi. Onlar sadəcə arasıra deklorativ bəyanatlar verməklə kifayətləndilər.

İkinci Qarabağ müharibəsində Azərbaycanın öz torpaqlarını güc yolu ilə azad etməsinin fonunda baş verən proseslər isə təsdiq etdi ki, əslində Minsk qrupunun məqsədi münaqişəni yoluna qoymaq olmayıb. Fransanın Vətən müharibəsinin başladığı günlərdən Ermənistanın müdafiəsinə qalxması və Azərbaycanla açıq şəkildə düşmənçilik aparması bunu təsdiq etdi. Azərbaycanın ərazilərini öz gücü ilə azad etməsindən sonra ortaya çıxan əsl həqiqət həm də budur ki, ATƏT-in Minsk qrupu əslində Ermənistanın işğal siyasətinə dəstək verib, Qarabağda ikinci erməni dövlətinin yaradılmasına çalışıb. Lakin Azərbaycan torpaqlarını güc yolu ilə işğaldan azad etməklə onların bu planını iflasa uğratdı. Vətən müharibəsindəki zəfərimiz həm də Minsk qrupunun həmsədri Fransanın ifşası oldu.

### Sülh sazişinin imzalanması üçün Ermənistan konstitusiyasına düzəliş etməlidir

Torpaqlarımızın işğaldan azad edilməsi Minsk qrupunun siyasi səhnədən getməsi ilə nəticələndi. Vətən müharibəsindən sonra, 2020-ci ilin dekabrında Fransadan və ABŞ-dən olan həmsədrləri qəbul edən Prezident İlham Əliyev Minsk qrupunun 28 il ərzində problemin həllində heç bir rol oynamadığını birbaşa onların özlərinin diqqətinə çatdırmışdı.

Prezident İlham Əliyev Şuşada keçirilən Dünya Azərbaycanlılarının Zəfər Qurultayında Minsk qrupunun fəaliyyətini şərh edərkən demişdi: "Minsk qrupu artıq yoxdur. Düzdür mən, bir neçə ay bundan əvvəl, hələ Rusiya-Ukrayna müharibəsindən əvvəl demişdim, məndən soruşmuşdular ki, Minsk qrupu nə ilə məşğul olacaq? Dedim ki, 2022-ci ildə onların yaranmasının 30 illik yubileyidir. Yubiley keçirəcəklər, sonra pensiyaya gedəcəklər. Amma Rusiya-Ukrayna müharibəsi başlayandan sonra heç yubiley keçirməyə bunlarda fürsət olmadı".

Dövlət başçısının Minsk qrupu ilə bağlı ironik formada söylədiyi bu sözlər 1992-ci ildən vasitəçilik missiyasını həyata keçirən qrupun fəaliyyətsizliyinə verilən ən obyektiv qiymət oldu.

Ermənistanla aparılan sülh müzakirələrində Azərbaycanın haqlı olaraq irəli sürdüyü prinsipial şərtlərdən biri fəaliyyətini dayandırmış ATƏT-in Minsk qrupunun və aidiyyəti strukturların həm də hüquqi ləğvi idi. Çünki Minsk qrupunun ATƏT tərəfindən ləğv olunmaması gələcəkdə Ermənistana Azərbaycana qarşı yenidən ərazi iddialarına düşməyə əsas verə bilərdi. İrəvan uzun müddət Minsk qrupunun hüquqi ləğvinə qarşı direniş göstərsə də, Azərbaycanın prinsipial mövqeyi qarşısında geri çəkilməyə məcbur oldu və ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti imzaladı.

ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qəbul olunan qərara əsasən, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in fəaliyyətdə olan sədrinə ünvanlanmış birgə müraciət məktubuna uyğun olaraq, ATƏT-in Minsk prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin ATƏT-in Minsk konfransının məşğul olduğu münaqişə üzrə Şəxsi Nümayəndəsinin və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun fəaliyyətinə 1 sentyabr tarixindən etibarən xitam verilib. Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatına əsasən sözügedən strukturların bağlanmasından irəli gələn təşkilati və texniki məsələlərin 1 dekabr 2025-ci il tarixindən gec olmayaraq yekunlaşdırılması ATƏT katibliyinə tapşırılıb.

Qərarda həmçinin keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ATƏT çərçivəsində vaxtilə qəbul edilmiş bütün qərarlar qüvvədən düşmüş və etibarsız elan edilib.

Beləliklə, vaxtilə Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması məqsədilə təsis edilmiş sözügedən institutların münaqişənin həlli nəticəsində yaranmış yeni şəraitdə lüzumsuz olması ATƏT-in bütün iştirakçı dövlətləri tərəfindən qəbul edilib, həmin institutların bağlanması rəsmiləşdirilib.

Bununla da Azərbaycanın sülh prosesindəki fundamental şərtlərindən biri yerinə yetirildi. Sülh sazişinin imzalanması üçün Ermənistan həm də konstitusiyasına düzəliş edərək Azərbaycana olan ərazi iddialarını aradan qaldırmalıdır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan .- 2025.- 4 sentyabr (№ 187).- S.6.